Səh. 2 Turan nədir? – Cəlal Yadigarlı
Səh. 3 Çin olan arzular – Esmira Ələkbərli
Səh. 6 Özümlə müsahibə – Afaq Azər
Səh. 6 Cəmiyyətin aynası – insan – Məhəmmədəli Allahyarov
Səh. 2 Müasir insan niyə daxili boşluq yaşayır? – Hacı Bəkiroğlu
Səh. 4 QAFQAZ UNİVERSİTETİNİN PROFESSORU: "BU KONSEPSİYA İLƏ MƏKTƏBİN ORTA PİLLƏSİNDƏN HEÇ NƏ QALMAYIB, LƏĞV OLUNUB!"
Səh. 7 Tarixin dostluq səhifələri – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 DEKABR
2025-Cİ İL
№ 22 (239)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAKALAVR TƏHSİLİ 3, MAGİSTR TƏHSİLİ 1 İL VƏ TAM ÖDƏNİŞSİZ OLACAQ



Gürcüstan parlamenti "Ali təhsil" haqqında Qanuna təklif olunan dəyişiklikləri qəbul edib. Dəyişikliklərə əsasən, universitet sistemində bəzi ixtisaslar istisna olmaqla bakalavr təhsilinin müddəti 3, magistr təhsilinin müddəti isə 1 il nəzərdə tutulub. Akademik ali təhsil çərçivəsində bakalavr səviyyəsində təhsil proqramı ən azı 180, magistr pilləsində isə ən azı 60 kredit təşkil edəcək.

Əsas düzəlişlərdən biri də ali təhsil sistemində qrant modelinin ləğvi ilə əlaqədardır. Bundan sonra Gürcüstan vətəndaşları dövlət ali məktəblərində həm bakalavr, həm də magistr pilləsində tam ödənişsiz təhsil alacaqlar. Lakin fakültələr üzrə kvotalar tətbiq ediləcək.

Qeyd edək ki, qanuna dəyişikliklər hökumətin təşəbbüsü əsasında hazırlanıb. Səsvermə zamanı 79 deputat qanunun lehinə, 9-u isə əleyhinə olub.

***Məlumat üçün bildirək ki, hazırda Gürcüstan universitetlərində bakalavr pilləsi üzrə təhsilin müddəti 4, magistr pilləsi üzrə isə 2 il təşkil edir.***

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ ORTA DƏHLİZ ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ EDİBLƏR



Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili türkiyəli həmkarı Hakan Fidanla Orta Dəhlizin inkişafı kontekstində iki ölkənin tranzit və nəqliyyat potensialından tam istifadənin vacibliyini müzakirə ediblər.

Gürcüstan Xarici İşlər Nazirliyinin verdiyi məlumata görə, görüş ATƏT-in 32-ci Nazirlər Görüşü çərçivəsində baş tutub.

***"Hakan Fidan gürcü həmkarına Türkiyə hərbi təyyarəsinin qəzası ilə əlaqədar verdiyi dəstəyə və səylərə görə təşəkkür edib. Gürcüstan və Türkiyə arasında güclü strateji tərəfdaşlıq və intensiv ikitərəfli əməkdaşlıq təqdir edilib. Həm yüksək səviyyədə, həm də müvafiq nazirliklər arasında aktiv səfər mübadiləsinə xüsusi diqqət yetirilib. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının üçüncü iclasının keçirilməsinin vacibliyi qeyd edilib",*** – deyə bəyanatda bildirilir.

Bundan əlavə, xarici işlər nazirləri ticarət və iqtisadi əməkdaşlığı müzakirə ediblər və beynəlxalq tranzit və iqtisadi əməkdaşlıq üçün yeni imkanlar açan Orta Dəhlizin inkişafı kontekstində iki ölkənin tranzit və nəqliyyat potensialından tam istifadənin vacibliyini vurğulayıblar.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd ediblər və əsas regional təşəbbüslər üzrə addımları əlaqələndirməyə davam etməyə hazır olduqlarını təsdiqləyiblər.

## KÜTLƏVİ AKSİYALARIN KEÇİRİLMƏSİ İLƏ BAĞLI QAYDALAR SƏRTLƏŞDİRİLİB



Prezident Mixeil Kavelaşvili "Toplantılar və nümayişlər haqqında" Qanuna düzəlişləri təsdiqləyib.

Parlament tərəfindən üçüncü oxunuşda qəbul edilən düzəlişlər qüvvəyə minib.

Dəyişikliklərə görə, toplantı və nümayişlərin təşkilatçıları tədbirlərin keçirilməsi barədə əvvəlcədən Daxili İşlər Nazirliyini məlumatlandırmağa borcludurlar.

Bundan əlavə, əgər toplantı və ya nümayiş ictimai təhlükəsizliyə, hüquq-mühafizə qaydalarına, müəssisə, idarə və təşkilatların normal fəaliyyətinə, nəqliyyatın hərəkətinə, insanların sərbəst hərəkətinə və ya insan hüquq və azadlıqlarına real təhdid yaradırsa, dövlət orqanı iştirakçılara alternativ yer, vaxt və ya yürüş marşrutu ilə bağlı göstəriş vermək hüququna malikdir. Bu göstərişlərə əməl olunmaması aksiyanın iştirakçılarının 15 günədək, təşkilatçılarının isə 20 günədək inzibati həbs olunmasına səbəb olacaq.

Qanunun təkrar pozulması halında isə aksiya iştirakçısı və ya təşkilatçısı bir ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

## GÜRCÜSTANIN VƏ AZƏRBAYCANIN TƏHSİL NAZİRLƏRİ İKİTƏRƏFLİ ƏMƏKDŞLIĞI MÜZAKİRƏ EDİBLƏR




Azərbaycan və Gürcüstanın təhsil nazirləri Tbilisidə ikitərəfli əməkdaşlığı müzakirə ediblər.

Təhsil, elm və gənclər naziri Givi Mikanadze ölkədə rəsmi səfərdə olan Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə təhsil, elm və gənclərlə iş sahələrində Gürcüstan-Azərbaycan əməkdaşlığının daha da dərinləşdirilməsi və yeni birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

G.Mikanadze azərbaycanlı həmkarına Gürcüstanın təhsil sistemi üzrə son yeniliklər barədə məlumat verib və xüsusilə ali təhsil və ümumi təhsil pillələrində planlaşdırılan islahatlara toxunub.

Görüş zamanı gürcüdilli və azərbaycandilli məktəblərə dərsliklərin vaxtında çatdırılması, etnik azlıqların təhsilə inteqrasiyasının gücləndirilməsi, ali təhsil müəssisələri arasında tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi, ADA Universiteti ilə mövcud uğurlu əməkdaşlığın yeni istiqamətlər üzrə genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

E.Əmrullayev təhsil, elm və gənclər sahələrində yeni birgə layihələrin həyata keçirilməsinə tam hazır olduqlarını bildirib.



# TURAN NƏDİR?

Cəlal Yadigarlı

Tarix identikliyi yaradan mühüm ünsürlərdən biridir. Cəmiyyət, millət olaraq insanların toplana bilməsi üçün ortaq dəyərin olması lazımdır. Bu dəyərlərin başında dil və tarix gəlir. Millətlər həmişə öz tarixləri ilə iftixar etmişdir. Bu hiss sanki insanoğlunun damarlarına hopur. Tarix elmi də elə keçmişə marağın, əvvəlki sivilizasiyaların insanda oyatdığı heyranlığın əsasında yaranmışdır. Hər toplumun keçmişi özünə xoşdur. Tarixinin iftixarını ən uca tutan millətlərdən biri də türk millətidir. Əsrlər boyu Çindən Avropaya qədər yayılan, uzun müddət dünyanın birinci gücü olan, vuruşqanlığı, cəsurluğu, ədaləti ilə seçilən bir qanın daşıyıcısı olmaq özünə türk deyən hər kəsin qürur mənbəyidir. Lakin bu qürur başqa millətlərə qarşı nifrət, kin oyatmamalıdır. Qarşılıqlı hörmət, sülh millətlərin əsas qayəsi olmalıdır. Millətini sevmək mənim qövmüm bütün qövmlərdən üstündür demək deyil. Buna görə də millətpərvərlik ilə irqçiliyi ayırd edə bilməliyik. Türk millətinin başqa millətlərə kini, nifrəti yoxdur.

Tarixi birliyin əsasında türk millətinin qəlbində Turan sevdası var. Bəs Turan nədir? Həqiqətdə bu ideologiyanın nəyi əks etdirdiyini bilirikmi? Turanın dünyanın rifahına zərəri varmı? Ötən əsrin əvvəllərindən başlayaraq Turan ideologiyasına separatizm, terrorizm, imperializm kimi damğalar vurulmağa başladı. Bu gün də Turandan danışanda bizə separatist gözü ilə baxanlar var. Turan dedikcə Gürcüstanda da mənə o qədər insan düşmən kəsildi ki, bu fikrə aydınlıq gətirmək istədim.

Turan ideologiyası bu gün var olan altı türkdilli dövlətin siyasi, mədəni, elmi, ticari, hərbi birliyi deməkdir. Avropa birliyinin Şərq versiyasıdır. Ekonomik, hərbi cəhətdən bərabər inkişaf etməmizin planıdır. Həmçinin ortaq dəyərlərimizin, dilimizin, dinimizin, kimliyimizin qorunmasının qarantiyası, özbəyi, qırğızı, türkməni, azərbaycanlını, türkü, qazağı başqa-başqa millət gözündə deyil, bir millət adı ilə tanıtma qayəsidir. Axı biz bir millətik. Niyə bir millətdən yaranan dövlətlərin öz aralarında birlik yaratması separatizm olsun? Maraqlıdır, niyə Avropa birliyi separatist, imperialist sayılmır, türk birliyi sayılır? Turan birliyi heç bir dövlətin işğalını, müharibəni, imperializmi hədəfdə tutmur.

Altı türkdilli dövlətin ortaq çatı altında toplanmasına, Şərq regionunda sülhün bərqərar olunmasına, gerçək imperialist, müstəmləkəçi güclərdən regionumuzun müdafiəsinə biz Turançılıq deyirik. İnsanlar həqiqətə gözlərini bilə-bilə yumurlar bəzən. Yaxın Şərqin altını üstünə gətirən Amerika dövləti imperialist sayılmır, Fələstində uşaqları vəhşicəsinə öldürən və açıqca "vəd olunan torpaqlar" adlı ideyanı dövlətin qarşısına hədəf qoyan İsrail dövləti imperialist sayılmır, "postsovet" ölkələrinə gün doğmağa qoymayan Rusiya imperialist sayılmır, amma türkdilli dövlətlərin öz mövcud sərhəddini, adını qoruyaraq, başqa dövlətlərin ərazi bütövlüyünə zərər vermədən siyasi cəhətdən bir olması separatizm, imperializm sayılır. Bunun kökündə ancaq türk millətinə olan nifrət, gerçək imperialistlərin imperiya hədəflərinə maneə yaranmasın deyə apardıqları təbliğatlar dayanır. Yoxsa, hamı yaxşı bilir ki, tarixdə olmadığı kimi, bu gün də türk milləti zülmün daşıyıcısı deyil, sülhün tərəfdarıdır.

Dünyada zülmə məhkum qalan millətlərin arasında ən yüksək rəqəmə sahib olan millətlərdən biri də türk millətidir. Çində milyonlarla türk tarixdə bənzəri olmayan zülmün qurbanıdır. İranda milyonlarla türkün ana dilində məktəbi yoxdur, Rusiyada milyonlarla türk assimilyasiya ilə üzbəüzdür. Bu insanları zülmdən qorumağa bizim haqqımız yoxdurmu? Sülh yolu ilə türk dövlətlərinin sərhəddi xaricində yaşayan türkün haqqını qorumaq separatizmdir bəyəm? Asiya ölkələrini və Azərbaycanı müstəmləkəyə çevirməyə Rusiya fürsət axtarır, Türkiyəni terrorla parçalamağa çalışırlar. Bu dövlətlər siyasi birlik yaradıb özünü müdafiə edə bilməzmi? Yoxsa, bu gerçək imperialistlərə sərf etmir? Bəs onda hansı demokratiyadan danışırıq?

Gerçək imperialistlərin təbliğatına uyub Turançılıqdan qorxanlar bilməlidir ki, türk nəsli heç bir milləti işğal etmək arzusunda deyil, öz varlığını, kimliyini, ərazisini şər qüvvələrdən qorumaq arzusundadır.

**Cəlal Yadigarlı**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# MÜASİR İNSAN NİYƏ DAXİLİ BOŞLUQ YAŞAYIR?



Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Son illər texnologiyanın sürətlə inkişaf etməsi və həyatın zahirən asanlaşması insanın gündəlik yükünü azaltsa da, daxili rahatlığını eyni ölçüdə artıra bilməyib. Əksinə, bu gün cəmiyyətdə ən çox eşidilən ifadələrdən biri "yorğunluq"dur. Bu yorğunluq fiziki yox, daha çox ruhun yorğunluğu olaraq ifadə edilməkdədir. Xüsusilə gənclər arasında məqsədsizlik, ünsiyyət çətinliyi və daxili narahatlıq artıq adi hala çevrilmişdir.

Mütəxəssislərin fikrincə, problemin kökü yalnız sosial və iqtisadi səbəblərlə izah oluna bilməz. Psixologiyada qəbul edilən yanaşmaya görə, insan sadəcə maddi ehtiyaclarını qarşılayan bir varlıq deyil. Abraham Maslounun ehtiyaclar nəzəriyyəsində də vurğulandığı kimi, insanın ən dərin ehtiyaclarından biri həyatına məna verə bilməsidir. Bu məna olmadıqda rifah da, rahatlıq da yetərli olmur.

Bugünkü sürətli həyat tərzi insanı daim nəyəsə çatmağa məcbur edir, amma "niyə yaşayıram?" sualına cavab vermək üçün vaxt buraxmır. Sosial şəbəkələrdə qurulan süni uğur obrazları, fərdiyyətçiliyin həddindən artıq qabardılması insanı cəmiyyət içində tək qoyur. Ailə bağlarının zəifləməsi və dəyər anlayışlarının arxa plana keçməsi bu boşluğu daha da dərinləşdirir.

Maraqlıdır ki, müasir elmin gəldiyi nəticələr mənəvi yanaşmalarla ziddiyyət təşkil etmir. Dini düşüncədə insanın qəlb rahatlığı anlayışı onun özü ilə, ətrafı ilə və ali dəyərlərlə qurduğu münasibətlə izah olunur. Müasir psixologiyada isə bu, "daxili harmoniya" və "emosional tarazlıq" kimi ifadə edilir. Terminlər fərqli olsa da, məzmun eynidir.

Bundan əlavə, müasir insanın informasiya bolluğu içində yaşaması da daxili qarışıqlığı artıran amillərdəndir. Gün ərzində yüzlərlə xəbərə, görüntüyə və fikir axınına məruz qalan fərd bunları süzgəcdən keçirməyə vaxt tapa bilmir. Nəticədə düşünmək, dərinləşmək və özünü dinləmək bacarığı zəifləyir. Səssizliyin azalması isə insanın öz daxili aləmi ilə əlaqəsini kəsir.

Digər tərəfdən, uğurun yalnız maddi göstəricilərlə ölçülməsi cəmiyyətdə gizli təzyiq yaradır. İnsan dəyərini və mənliyini əldə etdiyi statusla eyniləşdirdikdə uğursuzluq qorxusu daha da dərinləşir. Bu qorxu isə zamanla daxili gərginlik və mənəvi boşluq kimi özünü göstərir. Halbuki elmi tədqiqatlar da təsdiqləyir ki, insanın psixoloji sağlamlığı üçün özünü olduğu kimi qəbul etməsi və real gözləntilərlə yaşaması mühüm əhəmiyyət daşıyır.

Burada söhbət dini çağırışdan yox, insanın həyatına istiqamət verən dayaq nöqtələrindən gedir. Araşdırmalar göstərir ki, mənalı həyat sürən, sosial əlaqələri möhkəm olan və dəyərlər sistemi formalaşmış fərdlər stresə qarşı daha dözümlü olurlar.

Nəticə etibarilə demək olar ki, müasir insanı yoran həyatın sürətli olması deyil, bu sürətin içində itən mənadır. Cəmiyyət olaraq bu boşluğu yalnız maddi inkişafla deyil, elmi düşüncə ilə uzlaşan mənəvi dəyərlərlə doldura bildiyimiz halda daha sağlam gələcəkdən danışmaq mümkün olacaq.

# ÇİN OLAN ARZULAR



300 illik şəcərəsini fəxrlə sadalayır. Soyunu-kökünü yaxşı bilir, elə bildiyinə görə də özünü gözəl təqdim edir. Bəli, o, Tbilisidə dünyaya gəldi, elə bu gün də müəllim kimi fəaliyyət göstərdiyi Tbilisi 64 saylı məktəbin məzunu oldu. İstər oxuduğu ali məktəbdə, istər ziyalı ailəsində həmişə milli dəyərlərimizi fəxrlə təbliğ etsə də, içində həmişə bir qırıqlıq vardı – bunlar çox azdır, nəsə etmək lazım deyə...

Bu gün inteqrasiya yönümlü maliyələşən mərkəzlərimiz çoxdur, amma illər öncə heç də belə deyildi. Müxtəlif təbəqəli ziyalılar içində olan Ceyran müəllim daim bu barədə düşünürdü... Biz niyə özümüzü təqdim edən bir birlikdə olmayaq, axı türk-Azərbaycan köklüyüksə bu təqdimatlardan niyə qıraqda qalaq.

Hələ 1990-cı illərdən sadə qrup kimi fəaliyyətə başladı. Artıq 1995-ci ildə "Şən və hazırcavablar" qrupu kimi tanınan şagirdlərdən ibarət qrup təşkil etdi. İstedadlı olduğu qədər müxtəlif dillər bilən bu uşaqlarla artıq Ceyran müəllim arzularını Gürcüstanda özünü azərbaycandilli məktəbin şagirdlərinin timsalında təqdim edirdi. Bu böyük iş idi, amma hələ istədikləri tam deyildi, daha da irəli getməyi düşünürdü.

2000-ci ildə isə "Gürcüstanda yaşayan Azərbaycanlı Məktəbli Gənclər Mədəniyyət Mərkəzi"ni yaratdı. Bu artıq açar idi, istədiyi yola gedən böyük darvazanın açarı. Bu açarla o darvazanı açıb cığırdan böyük yola keçəcəkdi. Buna hələ çox vardı, amma əsas yola çıxmaqdı.

Ceyran müəllim zəhmətkeşliyi, fədakarlığı sayəsində mərkəzdə "Ceyran" mahnı və rəqs ansamblı da yaratdı.

İlk illərdə bəzi çətinliklər yaşadı. Rəqsləri gözəl qursa da milli geyimlərin əldə olunması çətinliklər yaşadırdı. Keçid dövrünün eniş-yoxuşunu əzmlə addımladılar və sürətlə nəinki Gürcüstanda, hətta Azərbaycan, Türkiyə respublikalarında əksər tədbirlərə dəvət aldılar. Beynəlxalq festival və müsabiqələrə dəvət olundular. Meriyanın, eləcə də ölkə daxili bütün rəsmi yığıncaqlarda Azərbaycan folklorunu fəxrlə, qürurla təmsil etdilər.

Ceyran müəllim artıq arzularının qanadında idi. İstədiyi bu deyildimi? Yox, bu kifayər deyildi. İlk vaxtlar "KVN"dən başlasa da rəqslə kifayətlənməməli idi. Harada milli dəyərləri təbliğ edən müsabiqə, festival, təqdimat olurdu, mütləq qatılmaq lazım deyə iştirak edirdi. Əlbəttə, artıq öz sözünü deyən "Ceyran" ansamblı da, Gürcüstanda Azərbaycanlı Məktəbli Gənclər Mərkəzi də tanınmışdı, dəvət alırdılar.

Milli Kulinariya Festivalında, 2011-ci ildə Ceyran müəllimin təşkilatçılığı ilə mərkəzin təqdim etdiyi Azərbaycan milli mətbəxi guşəsində tək dolmanın 20 növünün nümayişi bütün iştirakçıları heyrətləndirmişdi və birinci yeri qazanmışdılar. Bu, dolma statusuna bir mədəni nöqtə idi.

Mən Ceyran müəllimin son 25 ildə saysız təqdimatlarının siyahısını yazmıram, maraqlananlar məlumatlıdır. Məlumdur ki, bu illər ərzində rəsmi yığıncaqlar, müsabiqələr siyahısında da yer alıbsa, deməli, sözünü deyənlər cərgəsində olub.

Yaxınlarda Ceyran Qurbanova Azərbaycan Mədəniyyət Elçilərinin 1-ci Forumunda Gürcüstan təmsilçilərindən biri kimi iştirak etdi. Bir az da kövrəlmişdi. Ona görə ki, keçmiş xatirələr yadına düşdü... 2000-ci illərin əvvəllərində Azərbaycan filarmoniyasında iştirak edəndə milli geyimlərimiz kasadlıq təşkil edirdi. Artıq nəinki milli, hətta digər rəqslər üçün də geyimlərimiz var, hətta bəzilərini də özü hazırlayır, düzəliş edir, dizayn yaradır. Bax, axtardığı darvazanın açarı bu idi, bu açarla o, kiçik cığırdan geniş yollara çıxmışdı.

Bu ilin 22 noyabrında "Art Hall" konsert zalında "Biz Gürcüstanı sevirik" adlı beynəlxalq festival keçirildi.

Təəssüf ki, orada Azərbaycandan nümayəndələr yox idi. Səbəb quru sərhədlərin bağlı olması idi. Ansamblların gəlişi böyük məbləğ tələb edirdi. "Ceyran"ın iştirakı isə Azərbaycanın əks-sədası kimi səsləndi: "Biz Gürcüstanda yaşayan bütün Azərbaycan türkləri, həmçinin Azərbaycan Respublikası adından deyirik: Biz Gürcüstanı sevirik!"

Ansambl bu festivalda "Qarabağ yallısı" və "Ay Laçın" rəqsləri ilə çıxış etdi və 14 nəfər iştirak edərək diplom, medal və festivalın kubokunu əldə etdilər. Bax, buna deyirəm nəticə. Ona görə dəfələrlə yazılan uğurları sadalamadım.



Söhbətimizin sonunda Ceyran müəllim bir iradını belə ifadə etdi ki, gürcü xalqı rəqsi çox sevir və dəyərləndirir. Mənim qrupuma, mərkəzimə region baxımından Tbilisi-Şida Kartli məktəbli və gəncləri gəlirlər. Kvemo Kartlidə isə sizlər daha kompaktsınız, çoxsunuz. Milli rəqs qrupları isə azdır. Olanlar da xareoqrafik elementləri qarışdırırlar. Mən mərkəzlərə dəfələrlə demişəm, mənə nümayəndələrini yollasınlar, onları təmənnasız öyrədim, hətta rəsmi sertifikatla təmin edim, təki onlar düzgün və gözəl rəqslər qursunlar. Əlbəttə, onların rəqsləri ilk baxışda gözəl görünə bilər, amma baxır kimin gözündə. Bilməmək ayıb deyil, öyrənməmək ayıbdır.

Bax, belə. Bunu da yazdım ki, gərək olar. O sehirli açarınız daha böyük darvazalar açsın, Ceyran xanım, müəllim!

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# MƏNTİQDƏN UZAQ ZÖVQƏ YAXIN HƏYATLAR

Bir məqalənin ərsəyə gəlməsi üçün əvvəlcə o məqalənin ərsəyə gəlməsinə səbəb olan bir məqsəd olmalıdır. Yəni mövzular, məqalələr özbaşına əmələ gəlmir. İnsan cəmiyyət içərisinə qarışdığı zaman baş verən hadisələri görür, bəzən bir xəbər oxuyur, insanların davranışlarını analiz edir və beləliklə ortaya çıxan nəticələrdən asılı olaraq insanın yazmaq, olanları anlatmaq ehtiyacı meydana gəlir. Məqalə yazılan zaman daxildən bir rahatlıq hissi gəlir insana, sanki insan fərəhlənir yazdıqca. Qələmi ilə dərdləşir bəzən insan...

Bu yazını yazmaq üçün uzun bir vaxt fürsət tapmağa çalışdım və nəhayət artıq daxildə olan burulğanlar yazıb rahatlanmağımın gərəkdiyinin fərqində idi.

İnsanın yaradılmasının səbəbi olduğu kimi, insanların davranışlarının da səbəbi və davranışların daşıdıqları məqsədin olması lazımdır. Bu, həyatın ən sadə və məqsədli düsturudur deyə bilərik. Müasir dövrdə insanların yaşam tərzi nəzərə çarpacaq dərəcədə dəyişib. Zaman keçdikcə davranışların arxasındakı səbəblər, məqsədlər və dəyərlər sanki arxa plana keçib, onların yerini isə ani zövq, keçici rahatlıq və "elə istədim" düşüncəsi tutur. Yəni insanlar davranışlarının səbəbini özləri özlərinə soruşmalıdırlar, hərəkəti bir səbəb lövhəsinə oturtmalıdırlar, o səbəbin də daşıdığı məqsəd olmalıdır. Əgər hərəkət zövq uğruna edilibsə onun doğurduğu nəticələr göz önünə alınmalıdır və düşünülməlidir.

Məqsəddən qopmuş hərəkətlər isə insanı məsuliyyət hissindən uzaqlaşdırır və nəticədə cəmiyyət daxilində mənəvi boşluq yaranır. Bugünkü insan davranışlarının böyük qismi daha çox zövqə doğru yönəlib. İnsanlar getdikcə "nə doğrudur?" sualından çox "nə xoşuma gəlir?" sualına cavab axtarırlar. Bu yanaşma bəzən o qədər güclənir ki, birinin eqosunu təmin etmək, özünü daha üstün hiss etmək istəyinə çevrilir. Məhz buna görə də günümüzdə elə insanlar var ki, öz eqosunu doydurmaq üçün qarşısındakı adama zərər verəcəyini bilə-bilə belə müəyyən davranışlardan çəkinmirlər. Sanki başqasının inciməsi onların daxili rahatlığının bir hissəsinə çevrilir.

Bu cür davranışların ən təhlükəli tərəfi isə onun səbəbsiz və məqsədsiz yaşama tərzinə çevrilməsidir. İnsan davranışı səbəbdən uzaqlaşdıqca nəticəyə görə məsuliyyət hissi də itir. Məqsədsizlik insanı zövqün arxasınca qaçan, daxili boşluğu anlıq həzzlə doldurmağa çalışan bir varlığa çevirir. Bu isə nə insanın özünə, nə də ətrafına xeyir gətirir. Əslində isə hərəkətin dəyərini onun niyyəti müəyyən edir. Niyyətsiz addım insanı irəli aparmaz. Məqsəd və məsuliyyət daşımayan bir davranış, nə qədər cazibədar görünsə belə, nəticədə mənəvi düşüşə aparır.

Cəmiyyət olaraq yenidən dəyərlərə qayıtmağımız, hərəkətlərimizin arxasındakı niyyəti soruşmağımız vacibdir. Zövq keçicidir, məqsəd isə insanın yolunu aydınladır. Gəlin eqomuzu deyil, insanlığımızı böyütməyə çalışaq. Addımlarımızı niyyətlə, sözlərimizi dürüstlüklə seçək. Çünki hər birimizin seçimi cəmiyyətin gələcəyini formalaşdırır. Doğruya yönələn hər bir insan öz həyatını gözəlləşdirər və nəticədə həyatların birləşməsinin cəmi olan dünya da gözəlləşər.

**Lamiyə Hacıyeva**

*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Qadınlar Şurasının sədri*

# QAFQAZ UNİVERSİTETİNİN PROFESSORU: "BU KONSEPSİYA İLƏ MƏKTƏBİN ORTA PİLLƏSİNDƏN HEÇ NƏ QALMAYIB, LƏĞV OLUNUB!"

***"Bəs oradakı, ümumi təhsil islahatının təqdimatında gördüyümüz orta pillə haradadır?!. Demək olar ki, məktəbin orta pilləsi ləğv edilib..." – EDU.ARİS.GE ilə müsahibəsində Qafqaz Universitetinin professoru və Təhsil Nazirliyində milli tədris planının inkişafı üzrə keçmiş koordinator Niko Silaqadze bildirib.***

***Mütəxəssisin qiymətləndirməsinə görə, təhsil naziri tərəfindən təqdim edilmiş plana əsasən, 9 illik baza təhsili və 2 illik orta pillənin 1 ilinin repetitorium olması nəzərdə tutulur. Bu, "orta pillədə ümumi təhsil komponentinin olmaması" deməkdir.***



**– Cənab Niko, bizim söhbətimizin əsas mövzusu ümumtəhsil islahatında orta pillənin real "olub-olmamasına" aiddir. Ancaq buna qədər 2 dekabrda təhsil nazirinin təqdim etdiyi məktəb təhsil islahatı konsepsiyasını qiymətləndirərdiniz. Təqdimatdan sonra sizin təəssüratlarınız necə idi? Nə təqdim edildi, nə götürdük?**

– Çox sevinirəm ki, orta pillə haqqında söhbət edəcəyik. Nazirliyin ikincidərəcəli populist mesajlarla (məktəbli formaları, telefonların qadağası, birinci siniflərin qeydiyyatı və s. ) islahat gündəliyi yaratmaq istədiyi vəziyyətdə çalışmalıyıq ki, ən vacib məsələlər diqqətdən kənarda qalmasın.

Ümumi təəssüratım, əlbəttə, kəskin şəkildə mənfidir. Demək istəmirəm ki, bizi sadəcə məsxərəyə qoyurlar. Nazirin təqdimatında gördüyümüz 8 bənd həqiqətən də bu gün məktəbdə olan problemlərlə əlaqədar vəziyyətin analizini əks etdirmirdi. Keyfiyyətli təhsilə və onun bərabər şəkildə əlçatanlığına nə səbəb olur. Müəyyən olunmuş istiqamət-problemlər və onların həlli yolu üçün təklif edilən məqsədlər arasında səbəb-nəticə əlaqəsi də görünmürdü.

Bizə təqdim edilən konsepsiya deyil, piar-bəyanatlar toplusu idi. Onlar vasitəsilə "iki dovşan tutmağa" çalışırlar: Bir tərəfdən Baş nazirə sübut edirdilər ki, necə "bacarıqlıdırlar". Digər tərəfdən isə ictimaiyyətin konservativ əhval-ruhiyyəli qismi qarşısında ölkəni liberalizm ideologiyasının təsirindən necə "qoruduqlarını" imitasiya edirdilər.

Birinci dəfə kimsə həqiqətən buna aldana bilər, amma bu uzun müddət davam edə bilməz. Mövcud olmayan liberalizmdən danışmaqla şəxsi kompetensiyasızlığını örtə bilməzsən.

Mən milli tədris planı departamentindəki həmkarlarımın necə susmasına təəccüblənirəm və öz sükutları ilə nazirin saxta ittihamları ilə razılaşırlar. Sizin qazet vasitəsilə onlardan soruşmaq istəyirəm: Bu qədər müddət milli tədris planı liberal idi? Bu qədər müddət liberalizm ideologiyasını kurikuluma salmağa çalışırdıq, yaxud əksinə – kurikulumun hansısa ideoloji platformanın xeyrinə tərəf əyilməsinə nəzarət edirdik?

Ümid edirəm nazirlikdə kiminsə "institusional ləyaqəti" olmasa da, özünə hörməti qalıb və təqdimatda səsləndirilən məsxərələri cavabsız qoymayacaq.

**– Deyirsiniz ki, konsepsiyanın vəzifələri arasında hətta səbəb-nəticə əlaqəsi belə görünmürdü. Bununla nəyi nəzərdə tutursunuz? Yəni təqdim olunan çağırışların 8 maddəlik siyahısı ilə onların həlli mərhələlərinin – yenə 8 maddə şəklində verilməsi – bir-biri ilə əlaqələndirilməyibmi?**

– Əlaqələndirilməyib. Uyğunsuzluqlar o qədər açıq-aydındır ki, bu barədə danışmaq belə utancvericidir:

• Deyirlər ki, fundamental fənləri və onların "əhatəsini" gücləndiririk, paralel olaraq isə məktəbdən bir sinfi çıxardılar. Təkcə bir sinfi yox, faktiki olaraq iki ili kəsdilər — 11-ci sinif repetitorium elan edildi və bu da yalnız abituriyent ehtiyaclarına xidmət edəcək. Maraqlıdır, həmin fənnə indiyə qədər olduğundan daha az saat verilirsə, "əsas fənlərin" gücləndirilməsi necə olmalıdır?

• Proqramın yüklü olması problemdir və xarici dillər, incəsənət, musiqi və idmandan başqa praktiki olaraq bütün fənlərin tədirisinin gücləndirilməsini anons ediblər (aydın oldu ki, nazir "əsas fənlərdə" nəzərdə tutur: gürcü dili və ədəbiyyatı, tarix, coğrafiya, fizika, kimya, biologiya, riyaziyyat).

Maraqlıdır, bu qədər fənni həm gücləndirməyi, həm də proqramı yüngülləşdirməyi necə planlaşdırırlar?

• Deyirlər ki, yenilənən tədris resursları üzərində işləmək prioritetimizdir, amma indiyədək resursların inkişafı prosesində nazirliyin əsas dayağı olan nəşriyyatlar bu işdən kənarlaşdırılıb.

Maraqlıdır, resursların daim yenilənməsini hansı resursla planlaşdırırlar? Ümid edirəm ki, bunu indiyə qədər əməkdaşlıq etdikləri konkret nəşriyyatların eyni müəlliflərini (kitablarına qrif verilməyən müəlliflər) kirayələmək yolu ilə bacaracaqlarını heç kim ciddi düşünmür.

• Maliyyələşdirmə modeli problemdir deyirlər və problemin həlli yolu olaraq yenə də bu gün mövcud olan həmin modeli təklif edirlər.

Maraqlıdır, niyə bu model digər nazirlərdən fərqli olaraq Mikanadzenin əlində daha yaxşı işləyəcək?

• Təhsil pillələri arasında əlaqəni gücləndiririk deyirlər və 12-ci sinfin seçim olaraq "qarma-qarışıq" ideyasını qəbul ediblər ki, insan, ümumiyyətlə, ali təhsilə keçidin necə, nəyi nəzərə almaqla baş verəcəyini başa düşmür.

Bu kimi bir çox uyğunsuzluqlar müəyyən etmək lazımdır, amma düşünürəm ki, konseptual olaraq heç kimin heç nəyi düşünməməsinə əmin olmaq üçün bu da kifayətdir.

Müşahidə edin, nazir milli tədris planı barədə ümumiyyətlə danışmayıb. Heç nazirliyin digər vəzifəliləri bu baxımdan ictimaiyyəti məlumatlandırmağa tələsmirlər.

Müqayisə üçün, təqdimatda konkret deyildi ki, "yeni" müəllimin peşə inkişafı sxemi 2026-cı ilin yanvarında təsdiqlənəcək, tədris planı barədə isə heç nə deyilməyib (nəsə hazır olsaydı mütləq deyərdilər).

Maraqlıdır ki, əgər "konsepsiyada" deyilənlərin müvafiq kurikulumu alınacaq, ya alınmayacaq, o zaman, ümumiyyətlə, nədən və niyə danışırıq. Arxasında müvafiq milli tədris planı durmayan konsepsiyaların təqdim edilməsinin nə mənası var.

**– Siz təqdimatdan sonra yazırdınız ki, bu konsepsiya cəmiyyətə nə deyir: "Məktəb şagirdi milli imtahanlara hazırlaya bilmir, buna görə də bu gün onun orta pilləsinin repetitorium elan edilməsi anons edildi. Eləcə də məktəb karyera hazırlığını təmin edə bilmir və ona görə də məktəbə peşə təhsilini gətiririk, qeyri-müəyyən peşə istiqamətli proqramlardan danışırıq. Ümumi təhsilin orta pilləsinin ümumtəhsil funksiyasını itiririk" – bu, şagird üçün nə deməkdir?**

– Bu o deməkdir ki, qərar qəbul edənlər məktəbin funksiyasını düzgün başa düşmürlər. Məktəb "hazırlıq mərkəzi" deyil. O, şagird və müəllimin məhdud zaman çərçivələri və "imtahan qızdırması"nın yaratdığı stres olmadan əməkdaşlıq etməli və inkişaf üzərində çalışmalı olduqları bir məkandır. Nazir təqdimatında bir dəfə də olsun "subyekt" olaraq şagirdi qeyd etmədi. Əvəzində məktəbə ali və əmək bazarı üçün uşağın pis hazırlanmasına görə töhmət verir və töhmətə əsaslanaraq "innovativ idea" – repetitoriumu inkişaf etdirdi.

Yaxşı, bu faktı təsdiq edə bilərik ki, ümumi təhsilin orta pilləsində proqramların tərtib edilməsi zamanı (daha çox ibtidai, baza pilləsində) ali təhsil, yaxud peşə təhsili komponenti daha çox nəzərə alınmalıdır. Amma bu o demək deyil ki, ümumi təhsilin orta pilləsində bu iki komponent aparıcıdır. Yekun siniflərdə yenə də ümumi təhsil ideyası, dəyərlərin əldə edilməsi, təhsil materialının subyektləşdirilməsinə istiqamətlənmək əsasdır, aydındır ki, əgər "hazırlıq mərkəzindən" deyil, məktəbdən danışırıqsa.

Repetitoriumdan danışmaq sadəcə ayıbdır – başqa cür deyə bilməzsən. Yəqin yalnız Gürcüstanda belə təşəbbüs nazirin dilindən səsləndirilə bilər və buna ictimaiyyətdən reaksiya göstərilməz.

Təəccüblənirəm ki, ötən il "CAT" imtahanlarına görə İmtahanlar üzrə Milli Mərkəzlə mübarizə aparan milli tədris planı idarəsinin ekspertləri niyə susurlar. Xatırladım ki, "CAT" imtahanları ilə bağlı bu sonuncunun məktəb həyatında oynadığı rol mübahisəli idi. Onun rəhbərliyi ilə təhsil prosesində "ağırlıq mərkəzi" imtahan hazırlığına keçirdi və buna görə real tədris məqsədləri "oyundan kənar vəziyyətdə" qalırdı.

Sual yaranır: indi məsələ necədir? Məktəbə birbaşa repetitorium adı verildikdə bu problem niyə gündəliyə qayıtmadı? Tədris planının aparıcı ekspertləri niyə Təhsil Nazirliyinin

*(davamı səhifə 5-də)*

(əvvəli səhifə 4-də)
indiki administrasiyasına qarşı zamanında İmtahanlar üzrə Milli Mərkəzlə apardıqları kimi mübarizə aparmırlar?

**– Əgər bugünkü konsepsiyanı analiz etsək, orta pillədən məktəbdə nə qalıb? Belə çıxır ki, məktəb indi özü şagirdlərə ali məktəb imtahanları üçün təlim keçəcək? Bir fikir də səsləndirildi ki, 12-ci sinfi çıxarmaqla müəllimlərin əməkhaqqı azalır, məhz bu repetitorium da bu çatışmazlığı doldurmaq üçündür. Deyə bilərik ki, yenə də indiyə kimi qazandığımız şagirdlər qazanacağıq?**

– Demək olar ki, orta pillədən heç nə qalmayıb. İndiyədək əldə etdiyimiz şagirdlə eynisini, hətta ondan da pisini qazanacağımız barədə burada iki cür fikir ola bilməz; nə vaxt olub ki, bəndlərin yerini dəyişməklə mahiyyət dəyişsin. Görünür 9+2 modelinə keçirik. Buradan 11-ci sinif repetitorium olacaq (12-ci seçim sinfi, nə olacağı barədə heç danışmağa da dəymir). Yəni ümumi təhsil komponenti üçün yalnız 10-cu sinif qalır. Maraqlıdır, bu bir il ərzində nə necə edilməlidir.

Xatırladım ki, ümumi təhsilin hər bir pilləsinin spesifik missiyası var. Orta pillənin missiyası üçün əsas sözlər bunlardır: “araşdırma”, “biliyi möhkəmləndirmə”, “maraqların fərqləndirilməsi”, “fərdi öhdəlik və muxtariyyətin yaradılması”, “ictimai həyata hazırlıq”. Bütün bunların əsası, təbii ki, əvvəlki pillələrdə qoyulur, lakin buraxılış sinifləri elə bir mərhələdir ki, bu komponentlərə xüsusi diqqət yetirilir və şagirdlərdən də başqa tip sintezlər gözlənilir (son dövrlər bu qədər teztez xatırladılan “dəyərlər üzrə təhsil” baxımından da məhz orta pillə həlledici əhəmiyyət daşıyır). Aydındır ki, bu komponentlərin inkişafına vaxt və hazırlıq lazımdır. Ona görə də bütün dünyada ümumi təhsil müddətinin uzadılması tendensiyası hiss olunur. Repetitoriuma çevrilmiş məktəbdə isə indiki mərhələdə heç kimin məqsədlərə etirazı olmayacaq.

Deyəcəklər ki, bunlar hamısı məktəbdə baş verirdi və bu barədə danışmağın nə mənası var. Aydındır ki, bu, demaqoqluqdur. Məktəb ona görə məktəbdir ki, ictima məktəb kimi fəaliyyət göstərməlidir. Nə Givi Mikanadzenin, nə Tamar Maxaraşvilinin, nə də ətrafda toplaşmış administrasiya-aparat elitasının belə milli əhəmiyyətli institutun funksiya-öhdəliklərini dəyişmək və “hazırlıq mərkəzinə” çevirmək hüququ yoxdur.

Bu təşəbbüs heç bir yaxşı nəticə verməyəcək. İndiyə qədər nə əldə edirdiksə yenə onu əldə edəcəyik. Sadəcə nəyisə inkişaf etdirmək və gücləndirmək üçün potensial olmayacaq (İllər ərzində orta pillə və bütövlükdə məktəbin inkişafı üçün hazırlanan bütün baxışlar, layihələr, təşəbbüslər ləğv olunacaq).

Valideynlər repetitoriuma çevrilmiş 11-ci sinfin kiməsə maddi qənaət etmək imkanı yaradacağına və uşağı həqiqətən ali məktəbə hazırlayacağına heç ümid etməsinlər. Nə zamandan bəri “toplananların yeri dəyişəndə cəm dəyişib”?

Əgər bu repetitoriumdan həqiqətən saat çatışmazlığını doldurmaq üçün istifadə edəcəklərsə, o zaman belə çıxır ki, burada yenə uşağa ona qədər də dərs keçən müəllimlər olacaq. Əgər repetitorium yalnız “xüsusilə güclü” müəllimlərin yeri olaraq elan ediləcəksə, o zaman bu saat problemi ilə heç yerə gedə bilmərik (məktəbin və orta pillənin missiyasına görə narahat olmayan müəllimlərdən xahiş edirəm, heç olmasa bu tipli faktorlara diqqət yetirsinlər).

**– Bu, tədris proqramının və ya kurikulumun ixtisarına və yenidən bölüşdürülməsinə necə təsir göstərə bilər, bütün bunlar on ilə necə sığışdırılmalıdır? Hökumət bizə deyir ki, savadsız nəslin idarə olunması asandır və onların məqsədi savadlı gənclikdir, amma digər tərəfdən ümumi təhsilin bu cür yolunu konsepsiyada qəbul edirik. Belə bir təhsil ilə rəqabətqabiliyyətli, savadlı məzun yetişdirmək nə dərəcədə mümkündür? Axı proqram on sinif üçün tərtib edilməlidir, on birinci sinifdə isə məktəbdə yalnız qəbul imtahanlarında verəcəyi fənlər üzrə hazırlıq aparılacaq; orada da cəmi 3 və ya 4 fəndən söhbət gedir...**

– Bu məsələ barədə danışan zaman bir daha qeyd etməliyik ki, Mikanadzenin yeni konsepsiyasına uyğun milli tədris planını müzakirə etməmişik. Heç nə zaman müzakirə edəcəyimizi də bilmirik. Mənim üçün uzun zaman milli tədris planının inkişafı üzrə koordinator olaraq işləmiş bir insan kimi çətin təsəvvür ediləndir. Tədris planına nəyin və necə salına biləcəyini elə təsəvvür etmək çətindir ki, sənəd həm “öz simasını qoruyub saxlasın”, həm də yeni təşəbbüslərlə ziddiyyətə düşməsin. Konkret olaraq:

• Uşaq seçilən 12-ci sinifdə nə öyrənməlidir? Yaxud burada əldə olunan biliklərə hansı yük və ya əhəmiyyət verilə bilər;

• Necə ola bilər ki, ikiillik təhsil müddətinin azaldılması şəraitində “əsas fənlər” gücləndirilsin;

• Təhsil pillələri (xüsusilə də orta pillə) real funksiyasını necə qoruya bilər – yəni əvvəlki pillədə əldə olunmuş biliklərin dərinləşdirilməsini necə təmin edə bilər.

10+2 formatında kurikulumlar elə düşünülmüşdü ki, uşaq baza pilləsində (7-10-cu siniflər) fənnin bütün konturlarını görürdü, orta pillə mərhələsində isə “inteqrasiya edilmiş fənlərin” formatında həmin bilgini möhkəmləndirirdi.

Bu gün qüvvədə olan 9+3 formatında da eyni yanaşma idi. Sadəcə bütöv konturların göstərilməsi üçillik baza pilləsi çərçivəsində bütün fənlərdə eyni şəkildə alınmırdı, ona görə də orta pillədə özəl fənlərin kurikulumlarının əhəmiyyəti təbii olaraq artırdı.

Yeni formatda heç bir yanaşma dəyişməz qalmayacaq. Fənnin bütöv konturlarını baza və orta pilləyə bölməli olacaqlar. Elə vəziyyət yaranacaq ki, 10-cu sinfin tədris materialı kurikulum deyil, baza pillə proqramının “quyruğu” olacaq və yenidən, artıq orta pillə spesifikasını nəzərə almaqla, əvvəlki dövrdə öyrənilmiş mövzuları və məsələləri daha dərindən əhatə edəcək.

Başqa sözlə desək, ümumi təhsil baxımından orta pillənin spesifik funksiyası olmayacaq. O sadəcə bazada çatdırılmayan hansısa çatışmazlıqları dolduracaq və sonra estafeti repetitoriuma ötürəcək.

Maraqlıdır, bu üslubda tərtib olunmuş fənlərdə təqdimatda Givi Mikanadzenin bu qədər qətiyyətlə müdafiə etdiyi “məzmun bütövlüyü” və “sistemli ardıcıllıq” necə qorunacaq (xatırladaq ki, o, məhz bu iki komponent baxımından mövcud dərslik və proqramları qüsurlu hesab edirdi).

**– Təqdim edilmiş konsepsiyada məktəb imtahanından ümumiyyətlə söhbət olmayıb, o zaman “CAT” kimi məktəb qiymətləndirməsinin tətbiq edilmə qərarı hələ Giorgi Amilaxvarinin nazirliyi zamanı qəbul edilmişdi və bu “şagirdin məktəbdən ali təhsilə keçmək vasitəsi” olmalı idi. Nazirin izah etdiyinə görə, əgər bu konsepsiya çərçivəsində imtahan olarsa necə nəticə əldə edə bilərdik?**

– Bu tip problemlər “10+2” formatında müzakirə olunurdu. Klassik tipli imtahanların formatı nəzərdən keçirilmirdi; söhbət məktəbin gücləndirilməsi və onun attestatının statusunun yüksəldilməsi mexanizmlərindən gedirdi. Yəni əsas sual belə idi – məktəbi necə inkişaf etdirək; onun potensialından maksimum necə istifadə edək? Sistemli rıçaqlar barədə müzakirələr də məhz bu sualdan qaynaqlanırdı.

Mikanadze administrasiyasının bizə təklif etdiyi tam başqa yanaşmadır. Burada praktiki olaraq məktəbin “atrofiyası” tanınıb və bütün qərarlar bunu nəzərə almaqla qəbul ediləcək: a) Ümumi təhsilin müddəti azalır; b) Nazirliyin resursu da məktəb imicinin gücləndirilməsinə xidmət etmək əvəzinə, xalqdan “məktəbə zidd əhvalın” çıxarılmasına yönəlib. Aydındır ki, bu vəziyyətdə ali təhsilə keçid və başqa bu kimi sistemli problemlərin müzakirəsi yalnız texniki məsələ olaraq qalır (Əvvəllər nəsə müzakirə olunurdusa, bu da artıq aktuallığını itirir).

**– Və nəhayət, yekun olaraq desək, əgər məni 11-ci sinifdə yalnız ali məktəbə qəbul üçün lazım olan fənlər üzrə “hazırlayırlarsa”, mən nə dərəcədə deyə bilərəm ki, tamhüquqlu ümumi təhsil almışam?**

– Əlbəttə, deyə bilməzsiniz, amma konsepsiya müəlliflərinin demoqoqiyası da buna hesablanıb. Müşahidə edin, belə bölməklə tədris-təhsilin keyfiyyətinin yaxşılaşacağını heç kim təsdiq də etmir (Kiminsə “gözünə kül üfürmək üçün” formal arqumentlər də gətirmirlər). Bütün güc sonrakı narativi aktivləşdirməyə yönəlib:

“Şagird 12-ci sinfə boşuna gedirdi və ali məktəbə daha az vaxta, daha effektiv, yaxud başqa əmək bazarında aktual proqramlar üçün hazırlansa yaxşı olmazmı. Məktəbdə onsuz da hər şey dağılıb və onu qorumaq üçün əlavə heç nə (misal üçün, səsini çıxarmaq və bununla sonda maaşın, ilin sonunda premyanın riskə atılması) lazım deyil”.

Sual yaranır: belə əhvali-ruhiyyənin yaradılmasının adı sənə maaş ödədikləri işə xəyanət etmək deyilmi? Gördüyümüz elə ümumi təhsilin məhv edilməsindən başqa bir şey deyil.

Bunun iştirakçıları yalnız İrakli Kobaxidze, Givi Mikanadze və ümumi təhsilin kurator müavini Tamar Maxaraşvili deyil, həm də bütün məktəbəqədər və ümumi təhsil departamentidir. Bu departament son dövrlərdə ümumi təhsil profilli departamentdən daha çox notarius konturunu xatırladır.

*Mənbə: edu.aris.ge*

Gürcü dilindən tərcümə etdi

**Aynurə Əliyeva**

# “ÖZÜMLƏ MÜSAHİBƏ” RUBRİKASININ QONAĞI GƏNC YAZAR AFAQ AZƏRDİR



**– Özünüzü oxuculara tanıdın.**

– Mən Qurbanova Afaq Fərisxan qızı 1991-ci il aprelin 23-də Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşam. 2 nömrəli orta məktəbdə təhsil almışam. Məktəbi bitirdikdən sonra təəssüf ki, səhhətimdə problemlər yarandı, ali təhsil ala bilmədim. Bir müddət Bakı şəhərində yaşadıq. Orada da mualicə alsam da, xeyiri olmadı. 1-ci qrup əliləm.

**– Oxucularınız sizi Afaq Azər kimi tanıyır. Mən bunun hüznlü hekayəsinin olduğunu bilirəm. Bəlkə yenə danışasınız?**

– Bəli, Azər qardaşımın adıdır. 2022-ci ildə onu itirdik. O mənim təkcə qardaşım yox, həm də yaxın dostum idi. Mənim kitabımın olmağı ikimizin də xəyalımız idi. Təəssüf ki, görmək ona nəsib olmadı. Mən hər zaman qardaşımın adını öz adımın yanında qürurla daşıyacağam və mənə bunu etməyimi məsləhət görən dəyərli İradə Aytel xanıma minnətdar olacağam.

**– Bəs yazarlığa necə başladınız?**

– Bakı şəhərində yaşadığımız müddətdə rəfiqəm bir gün sosial şəbəkələrdən birində paylaşılan əsərləri göstərdi. Çox maraqlı gəldi. Gündəlik paylaşılırdı, biz də boş vaxtlarımızda oxuyurduq. Bir neçə il oxudum, sonra nəhayət mən də həvəsləndim, yazdım. Çox sevildi, həqiqətən çox bəyənildi. O qədər mesajlar, rəylər, bəyənmələr gəlirdi ki, inana bilmirdim. Hər dəfə daha çox həvəslə yazırdım. Elə olanda da ortaya çox maraqlı əsərlər çıxırdı.

**– Hansı mövzuda yazmağı sevirsiniz?**

–Ailə-məişət mövzularında. Mütləqdir ki, sevgi də olur.

**– Kitabınız necə ərsəyə gəldi?**

– Atam mənim yazılarım haqqında qohumumuz, hörmətli insan Kamal Qurbanovla danışıb. O isə “bu istedadı işıqlandırmaq lazımdır” deyərək mənimlə əlaqə saxladı. Əvvəl Bakı şəhərində nəşr olunan “Yurd sevgisi” qəzetində bir neçə romanımı dərc etdirdi. Daha sonra kitab üçün çalışırdı ki, pandemiya oldu, biz Gürcüstana qayıtdıq, sonra da qardaşım dünyasını dəyişdi. Bu səbəblərə görə uzun çəkdi. Nəhayət, 2024-cü ildə ilk kitabım işıq üzü gördü.

**– Neçə əsəriniz dərc olunub və özünüzün ən sevdiyiniz hansıdır?**

– Üç romanım dərc olunub. “Mənimsən” yazdığım ilk əsərimdi, qəlbimdə yeri tamam fərqlidir. Necə deyərlər, ilk göz ağrımdır. “Mənim tənha gözəlim” və “Sükutun səsi” romanlarımı təkrar oxuyanda ilk gündə olduğu kimi həyəcanlanıram, kövrəlirəm. Həmçinin sosial şəbəkələrdə paylaşdığım əsərlər də var. Heç birini digərindən ayıra bilmirəm.

**– Nədən ilham alırsınız?**

– Yazılan xoş sözlərdən, rəylərdən. Hər kəs yaxşı bilir ki, Faxralı kəndində şeir yazanlar çoxdur, amma ilk nəsr yazarı mənəm. Bunu keçən il kitab təqdimatımda kəndin ziyalıları deyəndə özümlə qurur duydum. Daha sonra gənc bir qız məni özünə nümunə götürdüyünü yazdı, dünyalar mənim oldu. Birilərinə motivasiya oluramsa nə xoş mənə.

**– Yazmağı çox sevirsinizmi?**

– Çox sevirəm. Əlim klaviaturaya dəyəndə tamam başqa biri oluram. Orada güclü oluram, orada istədiyimi edirəm. Özümü yaratdığım obrazın yerinə qoyuram və çalışıram, obraz nə qədər çətinliklə üz-üzə qalsa da, o çətinlikdən daha güclü çıxsın. Bəzən yazdıqlarımı oxuyanda “bunları doğrudan mənmi yazmışam” deyə təəccüblənirəm. Ətrafımdan soruşurlar ki, gülərüz və heç kimə nifrət bəsləməyən biri olaraq bir obrazın nifrətini, qəzəbini necə yazırsan? Doğrusu, cavabı mən də bilmirəm. Onda başa düşürəm ki, yazdığım hər obrazı hiss edərək yazıram.

**– Qadınlar çox zərif və hətta zəif olurlar, siz çox güclü, iradəli xanımsınız. Bunu necə bacarırsınız?**

– Bu fikirlə heç razı deyiləm. Biz qadınlar elə bir gücə, iradəyə sahibik ki, bəzən öz bacardığımıza özümüz də məəttəl qalırıq. Mən də onlardan biri. Fiziki məhdudiyyətli olmağım yazmağıma mane olmadı və mən ortaya maraqlı işlər çıxartdım.

**– Sonda nə demək istəyirsiniz?**

– Mənə belə bir fürsət verdikləri üçün “Yeni yol” qəzetinə təşəkkür edirəm. Mənim üçün çox xoş oldu. İşlərinizdə uğurlar!

***Qeyd edək ki, “Özümlə müsahibə” rubrikasında sual verən də, cavab verən də eyni adam olur. Sualları müsahib özü seçir. Müsahibədə heç bir senzuraya yol verilmir və olduğu kimi dərc edilir.***



# CƏMİYYƏTİN AYNASI – İNSAN

Cəmiyyət böyük bir binaya bənzəyir. Bu binanın divarları, sütunları, bünövrəsi var, amma ən əsas hissəsi onun kərpicləridir. O kərpiclərin hər biri isə insandır. Biz adətən cəmiyyəti böyük bir anlayış kimi düşünürük, sanki bizdən ayrı bir varlıqdır. Amma həqiqət çox sadədir: cəmiyyət bizim hər birimizin əksidir. İnsan necədirsə, cəmiyyət də o cür formalaşır. Buna görə də “cəmiyyətin aynası – insan” fikri yalnız söz deyil, gerçək həyatın ən dəqiq ifadəsidir.

Uşaqlıqdan bizə deyirlər ki, yaxşı insan ol, böyüklərə hörmət et, vicdanlı davran. Bu nəsihətlərin kökü təkcə əxlaq deyil, həm də cəmiyyətin sağlamlığıdır. Çünki bir insanın davranışı təkcə özünə aid deyil. Kiçik bir yaxşılıq bir başqasının gününü gözəlləşdirir, bir başqasının gülümsəməsi isə başqasına keçərək zəncirvari yayılır. Eynilə bir nəfərin etdiyi haqsızlıq, kobudluq və yaxud yalan da cəmiyyətin ruhuna zərbə vurur. Deməli, insanın atdığı hər addım cəmiyyətin gələcəyinə yazılan bir cümlədir.

Cəmiyyətin formalaşmasında ən böyük güc xalqın içindəki dəyərlərdir. Dürüstlük, mərhəmət, ədalət, hörmət, təmiz vicdan – bunlar sadəcə sözlər deyil, bütöv bir ölkənin gələcəyini müəyyən edən xəzinələrdir. Bir insan yolda tapdığı pulu sahibinə qaytardıqda, bir uşaq yaşlı birinə yer verdikdə, bir müəllim şagirdinə sevgi ilə yanaşdıqda cəmiyyətin aynası daha da parlayır. Əksinə, insanlar bir-birinə qarşı laqeyd olduqda, qonşu qonşusuna biganə qaldıqda və ya başqalarının haqqı tapdalandıqda aynanın üzərində ləkələr yaranır. Ən maraqlısı isə budur ki, insanlar çox vaxt cəmiyyətdən narazı olurlar: “İnsanlar niyə belədir?”, “Niyə mənəvi dəyərlər azalır?”, “Niyə yaxşı insanlar az görünür?” Amma çox nadir hallarda özümüzə sual veririk: “Bəs mən öz davranışımla cəmiyyətdə hansı izi qoyuram?” Bir gülüş, bir xoş söz, bir kömək, bir anlayış – bəlkə də bizə kiçik görünür, amma cəmiyyət üçün böyük dəyişikliklərin başlanğıcıdır.

Cəmiyyət insanı formalaşdırdığı kimi, insan da cəmiyyəti formalaşdırır. Bu münasibət qarşılıqlı bir aynaya bənzəyir: biz ona baxırıq, o da bizə baxır. Əgər biz aynanın gözəl görünməsini istəyiriksə, əvvəlcə öz üzümüzə, öz davranışımıza, öz dəyərlərimizə baxmalı və onları düzəltməliyik. Çünki gözəl cəmiyyət yaxşı insanlar çoxalanda yaranır; pisliyin kökü isə bir insanın laqeydliyi ilə başlayır. Hər yeni nəsil cəmiyyətin gələcək rəsmini çəkir. Gənclərin savadlı, mədəni, məsuliyyətli olması bir xalqın sabahını müəyyən edir. Gənclər xeyirxahlıq etdikcə, öyrəndikcə, inkişaf etdikcə cəmiyyət də yüksəlir. Biz hansı cəmiyyətdə yaşamaq istəyiriksə o cəmiyyəti öz əlimizlə qurmalıyıq – davranışlarımızla, sözlərimizlə, düşüncələrimizlə.

Sonda bir gerçək dəyişməz qalır: cəmiyyət insanla gözəlləşir, insanla pozulur, insanla yenidən qurulur. Biz necə oluruqsa cəmiyyət də elə olur. Ona görə də hər birimiz öz üzərimizə məsuliyyət götürsək dünyanı dəyişmək üçün böyük gücümüz olduğu ortaya çıxar. Cəmiyyətin aynası bizik. Ayna parıldasın deyə əvvəlcə içimiz parlaq olmalıdır.

**Məhəmmədəli Allahyarov**
*Bolnisi bələdiyyəsinin Zol-Güvəc ictimai məktəbinin 9-cu sinif şagirdi*

# TARİXİN DOSTLUQ SƏHİFƏLƏRİ



*(Əvvəli 138-ci sayda)*

Gürcüstanın ilk çarı, Uplissixe və Msxetanın əsasını qoyan Parnavazın ata tərəfi gürcü, ana tərəfi isə İsfahandan olan fars idi.

1089-cu ildə Gürcüstanda görünməyən hadisə baş verdi. Çar II Georgi istefa verərək gənc oğlu Davidi taxta çıxartdı. Tarixdə Qurucu adı ilə tanınmış IV David öz fəaliyyətini Gürcüstanın birləşdirilməsinə həsr etmişdi. Onun arvadı Buranduxt qıpçaq xaqanı Ətərəkin qızı idi. Qıpçaqlar o vaxtlar Şimali Qafqazda yaşayırdılar. "Gürcüstan həyatı"nın verdiyi məlumata görə, Qurucu David Daryal yolu ilə qıpçaq ölkəsinə getdi və xaqana qonaq oldu. Səmimi danışıqlardan sonra çar David qırx min döyüşçünü öz ailələri ilə birlikdə Gürcüstana köçürmüşdü. Və nəticədə qırx min qıpçaq döyüşçüsünü öz sıralarına qatan gürcü ordusu olduqca güclənmişdi.

David Tiflisi ələ keçirəndən sonra burada yaşayan müsəlmanlara, o cümlədən tacirlərə xüsusi hörmət bəsləyirdi.

İbn əl-Əsrək əl Fariki özünün "Mayyafarikanın tarixi" əsərində yazır: "Müsəlmanlar darmadağın ediləndə, Nəcməddin iyirmi atlı ilə bərabər öz ölkəsinə qayıtdı. Onunla olanların hamısı çıxıb getdi, onun özü isə Mayyafarikaya qayıtdı.

Qoşun darmadağın ediləndən sonra abxazlar çarı (IV David) Tiflisdə dayanaraq ona hücum etdi, sonra onu qılıncla ələ keçirərək 1118-ci ildə şəhərə daxil oldu. O, şəhəri taladı və çox hissəsini yandırıb-yaxdı. Bundan sonra əhaliyə aman verdi. Onlara yaxşı münasibət göstərdi. Onların seçimi çara şərait yaratdı. O, müsəlmanların yaşadığı ərazilərdə donuzun saxlanılmasını qadağan etdi. Onlar üçün üzərində xəlifə və sultanın adı olan sikkə kəsdirdi. O, belə bir şərt də qoydu ki, gürcü, yəhudi və ermənilər İsmayıl hamamına getməməli, cümə günü isə minbərdən özünə deyil, xəlifə və sultanın adına dualar oxunmalıdır. O, ildə gürcülər üçün 5 dinar, yəhudilər üçün 4 dinar, müsəlmanlar üçün isə 3 dinar vergi təyin etdi. O, həmçinin belə bir şərt də qoydu ki, müsəlmana cəza verən onun gözündə qiymətdən düşəcəkdir. O, müsəlmanlara münasibətdə tamamilə alicənab olmuş və islam dininə, elmə, sufizmə müsəlmanlardan da çox hörmət və məhəbbət göstərmişdi".

Ərəb yazıçısı İbn əl-Lain yazır: "Mən müsəlmanlar üçün bütün bu üstünlüklərin hələ də tamamilə keçərli olduğunu 1153-1154-cü illərdə ora gedərkən öz gözlərimlə gördüm. Həmin vaxt mən Tiflisə gələn və bir neçə gün burada qalan Demetreni gördüm. Cümə günü o, məscidə gəldi, minbərin və xətibin qarşısındakı kətildə oturdu və xütbələri sonadək dinlədi. O, camaat namazını qılıb qurtaranadək orada qaldı, sonra isə çıxıb getdi. Həmin gün məscid üçün 200 qızıl dinar və ianə etdi..." İbn əl-Lain başqa bir yerdə isə belə yazır: "David oğlu Demetre ilə birgə hər gün məscidə gedir, çarın ünvanına oxunan duaya və Qurana qulaq asırdı. David imam və xətiblərə səxavətlə pul paylayardı. O, yad icmalar üçün karvansaraylar tikdirmiş, şairlər üçün təqaüd təyin etmişdi. Əgər birisi Tiflisi tərk etmək istəyirdisə can-başla ona yardım edir, yol xərclərini ödəyirdi..."

Ş.Mesxi "Didqori savaşı" kitabında yazır: "IV Davidin ordusu ilə İraq səlcuq sultanı Mahmudun ordusu arasında 1221-ci ildə Tiflis yaxınlığındakı Didqori ərazisində baş verən döyüşdə IV Davidin 60 minlik ordusu (bunun 15 mini qıpçaq, 5 mini osetin və Qərbi Avropa səlibçilərinin dəstəsi idi) sayca üstün olan səlcuqlara qalib gəldi. Gürcüstanın səlcuq əsarətində olan hissəsi, o cümlədən Tiflis azad edildi".

İbn əl-Əsir bu döyüşün bir səhnəsi haqqında belə bir məlumat verir: "Hər iki tərəf savaşa başladı. Qıpçaqlardan ibarət 200 nəfərə yaxın döyüşçü meydana atıldı. Müsəlmanlar elə zənn etdilər ki, onlar aman diləmək istəyirlər. Lakin qıpçaqlar ox atmağa başladılar və müsəlmanlarn cərgəsi pozuldu... Bu minvalla müsəlmanların çoxusu öldürüldü və dörd min nəfər əsir alındı".

Professor K.Qriqoliya "Gürcüstan həyatı" nəyi nəql edir" kitabında yazır: "... Şirvanşaha qonşu sultan Əbubəkr hücum edəndə Şirvanşah bu barədə çariça Tamaraya məlumat verdi. Gürcü çariçası təcili David Soslanın başçılığı altında öz qoşununu Şirvana göndərdi. O, Əbubəkri möhkəm əzişdirmək və Şirvandan çıxarmaq barədə əmr verdi.

Öz tərəfindən Əbubəkr də döyüşə hazırlaşmağa başladı. Bəzi qonşu ölkələr də ona yardım etdi. Böyük qoşun yaratdı. Şəmkir yaxınlığında həlledici döyüş oldu.

David özünü məharətli sərdar kimi apardı. O, qoşunu iki hissəyə böldü. Özü əsas ordu ilə Şəmkir qala-qəsrini sol tərəfdən hərlənib pusquda durdu. Kiçik orduya isə savaşı başlamağı tapşırdı. Şəmkir qalasının qapısı və körpüsü yaxınlığında şiddətli döyüşlər oldu. Əbubəkr güclü hücuma keçdi. Gürcü qoşunları çətinlik qarşısında qaldı. Ordu iki yerə bölünsə də düşmən əl çəkmirdi. David öz qoşunu ilə Gürcüstan bayrağı altında qəflətən özünü yetirdi. Çarın görünməsi düşməni vəlvələyə saldı. Gürcü qoşunları düşməni möhkəmcə əzişdirdi və qovmağa başladı. Ondan xəlifə tərəfindən verilən bayrağı aldı, çoxlu əsir və hərbi ləvamizat ələ keçirdi... Şəmkir döyüşü 1195-ci ildə baş vermişdi".

Gürcü salnaməçisinin yazdığına görə, XIII əsrdə çariça Tamaranın nəvəsi Anadolu səlcuq sultanına ərə gedir. Bu, gözəl və ağıllı bir xristian qızı üçün asan deyildi. Sultan Qiyasəddin bu iradəli, ortodoks təbəəsi olan şahzadəyə Gürcü xatın adını verir. Gürcü xatın sultan sarayında böyük hörmət və izzətə malik idi. O, bir çox xeyirxah işlərin təşəbbüskarı olmuşdu.

İrandakı azərbaycanlılar sülaləsindən ibarət Səfəvilər dövlətinin Gürcüstanla normal və işgüzar əlaqələri mövcud idi. "Azərbaycan tarixi"nin I cildində bu haqda belə yazılıb: "Gürcü çarlarının kömək üçün İsmayıla müraciət etməsi qızılbaşların Gürcüstana yürüşlər etməsinə səbəb oldu. 1516-cı ildə "Başı Açıq hakimi" (İmereti) Mənuçöhr tərəfindən məğlub edilən Mesxi (Samsxe) çarı IV Kvarkvare (1516-1535) Naxçıvandakı qışlağa gəlib müdafiə olunmasını İsmayıldan xahiş etdi. Şah İsmayıl 1517-ci ildə Div Sultanın başçılığı altında Şoragel yolu ilə Gürcüstana xüsusi qoşun göndərdi. Nəticə etibarilə Mənuçöhr məğlub edildi və o, Rum elinə, Türkiyəyə qaçdı. Kvarkvare isə taxtına çıxdı".

"Azərbaycan tarixi"nin başqa bir yerində oxuyuruq: "1615-1616-cı illərdə Şirvanda güclü üsyan baş verdi. Az sonra Gəncə yaxınlığındakı Dəngi vilayətinin əhalisi də bu mübarizəyə qoşuldu. Onlar mülazimləri (hərbi xidmətçiləri), Gəncə hakimi Məhəmməd xan Ziyad oğlu Qacarı öldürüb, şirvanlılarla birlikdə Kaxet çarının başçılığı altında İran zülmünə qarşı mübarizə aparan gürcü üsyançıları ilə əlaqə yaratdılar".

Adı çəkilən kitabın daha bir yerində isə belə qeydlər var: "1785-ci ildə Quba xanlığı İrana və Osmanlı Türkiyəsinə qarşı birgə mübarizə aparmaq üçün Gürcüstan çarlığı ilə ittifaqa girdi".

Ağa Məhəmməd şah Qacarın Tiflisə hücumu zamanı qazaxlıların və borçalıların gürcülərlə birlikdə fədakarcasına vuruşmasını S.Kişmişov qeyd edir: "Öz hərbi qüdrətini artıran çar İrakli özünün çarlığına aid olduqlarına görə borçalılardan, qazaxlılardan, şəmşəddillilərdən könüllülər tələb etmişdi. Bu məqsədlə hələ avqustun əvvəllərində İrakli öz oğlu şahzadə Aleksandreni buraya göndərmişdi. O isə yalnız yerli tayfalardan könüllüləri deyil, eləcə də Arpaçay sahillərində və Pəmbəkdə tərəkəmələri (azərbaycanlıları – M.M.) xidmətə dəvət etmişdi".

Mirzə Yusif Qarabağî "Tarixi-Safi" əsərində II İrakli barəsində yazır: "Ağa Məhəmməd xanın Gürcüstana hücumunun qabağını almaq üçün öz adamlarından və Qazax elinin müsəlmanlarından xeyli atlı toplayıb onun qarşısına göndərdi".

Soydaşlarımızın II İrakliyə yaxından kömək etmələri haqqında "Kavqaz" qəzetinin 1906-cı il 27 yanvar tarixli sayındakı "Gürcülər ilə müsəlmanlar arasındakı qarşılıqlı əlaqələr" adlı məqalədə də ürəkdolusu söhbət açılır: "Ağa Məhəmməd şah Qacar Tiflisi mühasirəyə alarkən gürcü çarı amansız düşmənə qarşı səkkiz min qoşunla vuruşmağa məcbur olmuşdu. Gürcüstan uğrunda döyüşən cəsurlar sırasında qazaxlılar və borçalılar da var idi. Bu tatarlar (azərbaycanlılar – M.M.). Gürcüstan uğrunda sanki öz vətənləri uğrunda canlarını qurban verirdilər".

*(davamı növbəti sayda)*

**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 DEKABR
2025-Cİ İL
№ 22 (239)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# GÜRCÜSTANIN ALİ TƏHSİL OCAQLARINDA ÇALIŞAN PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN ÜMUMİ SAYI AÇIQLANIB



2024-2025-ci tədris ilinin başlanğıcına olan məlumata görə, dövlət ali təhsil müəssisələrində çalışan professor-müəllim heyətinin ümumi sayının 58 %-i qadın, 42 %-i isə kişi olub. Bu barədə Gürcüstanın Milli Statistika Xidməti tərəfindən cari ilin noyabr ayında dərc olunan “Gürcüstanda qadın və kişi 2025” adlı son hesabatda qeyd edilib.

Özəl universitetlərə gəldikdə isə, “Sakstat”ın məlumatına əsasən, burada göstəricilər belə bölüşdürülür: qadınlar – 60 %, kişilər – 40 %.

Hesabatda dövlət və özəl ali təhsil müəssisələrində professor-müəllim heyətinin cinsə görə başqa bir bölgüsünə də yer verilib. Məlum olur ki, qadın professor-müəllimlərin 43 %-i dövlət universitetlərində, 57 %-i isə özəl ali təhsil müəssisələrində çalışıb. Onların ümumi sayı 6795 nəfər olub.

Kişi professor-müəllimlər üzrə göstəricilər isə belədir: 45 % – dövlət, 55 % – özəl ali təhsil müəssisələri. Onların ümumi sayı 4660 nəfər təşkil edib.

Milli Statistika Xidməti həmçinin ali təhsil müəssisələrində əsas heyət və müqavilə əsasında çalışan əməkdaşların cinsə görə bölgüsü ilə bağlı məlumatları da yayımlayıb.

Hesabata əsasən, 2024–2025-ci tədris ilinin başlanğıcında əsas heyət arasında qadınların 17 %-i professor, 38 %-i dosent, 16 %-i assistent-professor, 17 %-i müəllim, 12 %-i isə “digər” kateqoriyaya aid olub. Ümumi sayı – 6795 nəfər göstərilib. Kişilər arasında isə 32 % professor, 36 % dosent, 12 % assistent-professor, 12 % müəllim, 8 % isə digər vəzifələrdə çalışıb. Ümumi sayı – 4660 nəfər göstərilib.

Müqavilə əsasında çalışanlara gəldikdə isə, göstəricilər aşağıdakı kimidir:

Qadınlar: professor – 2 %, dosent – 5 %, assistent-professor – 2 %, müəllim – 38 %, digər – 53 %. Ümumi sayı – 8290 nəfər.

Kişilər: professor – 4 %, dosent – 6 %, assistent-professor – 2 %, müəllim – 37 %, digər – 50 %. Ümumi sayı – 4794 nəfər.

*Mənbə: studinfo.ge*

## GÜRCÜSTANDA 2292 MƏKTƏB FƏALİYYƏT GÖSTƏRİR



Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2025-2026-cı tədris ilinin başlanğıcında Gürcüstanda 2292 ümumtəhsil müəssisəsi fəaliyyət göstərib, bunlardan ən çox məktəb (17,1 %) İmeretidə yerləşir.

Məlumatda bildirilib ki, əvvəlki tədris ili ilə müqayisədə məktəblərin sayı 2 vahid azalıb. Hazırda mövcud olan 2292 məktəbdən 2086-sı dövlət, 206-sı isə özəl məktəbdir.

Statistika xidməti həmçinin şagirdlərin sayını da açıqlayıb. Regionlar arasında ən çox şagird (36,0 %) paytaxt Tbilisidə təhsil alır. Ümumilikdə isə, 2025-2026-cı tədris ilinin başlanğıcında ölkənin ümumtəhsil müəssisələrində 644,2 min şagird qeydiyyatdan keçib ki, bu da əvvəlki tədris ilinin göstəricisindən 0,6 % çoxdur.

Bundan əlavə, dövlət məktəblərində şagirdlərin ümumi sayının 88,8 %-i, özəl məktəblərdə isə 11,2 %-i təhsil alır. Şagirdlərin ümumi sayından 48,4 %-i qızlar, 51,6 %-i isə oğlanlardır.

Milli Statistika Xidmətinin məlumatına görə, 2025-ci ildə orta təhsil alan 41,4 min şagird olub ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 0,8 % azdır.

*Mənbə: edu.aris.ge*

## BOLNİSİDƏN OLAN GƏNC YAZIÇI AZAQ AZƏRİN YENİ ROMANI ÇAPDAN ÇIXIB



Gənc yazıçı Afaq Azərin “Sükutun səsi” adlı yeni romanı çapdan çıxıb. Kitab Bakıda “Elm və təhsil” nəşriyyatında işıq üzü görüb.

Roman baş qəhrəman Poladın faciəvi taleyi və Sehrinin bu taleyin arxasındakı həqiqəti üzə çıxarmaq cəhdləri üzərində qurulub. Əsər insan duyğularının sükutla bağlı dərin qatlarını bədii şəkildə təqdim edir.

Kitabın redaktoru Rəşid Faxralı, maliyyə dəstəkçisi isə Kamal Şaban oğlu Faxralıdır.

Müəllif “Yeni Yol”a bildirib ki, kitabın təqdimatı doğma Faxralı kəndində planlaşdırılır.

***Afaq Azər Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində anadan olub. O, 2015-ci ildən yazıçılıqla məşğuldur. Afaq Azərin “Mənim tənha gözəlim” adlı ilk romanı 2024-cü ildə Bakıda nəşr olunub.***

## GÜRCÜSTANA ƏN ÇOX SƏRMAYƏ YATIRAN ÖLKƏLƏR

Milli Statistika Xidmətinin yaydığı məlumata görə, bu ilin üçüncü rübü üzrə Gürcüstana ən çox sərmayə yatıran ölkə ABŞ olub – 93,5 milyon dollar. İkinci yerdə İspaniya (72,1 milyon dollar), üçüncü yerdə isə Türkiyə (70 milyon dollar) qərarlaşıb.

Bildirilib ki, Gürcüstanda 2025-ci ilin III rübü üzrə birbaşa xarici investisiyalar ötən ilin eyni dövrü ilə müqayisədə iki dəfə artaraq 533,2 milyon ABŞ dollarına çatıb. Hesabata əsasən, 2024-cü ilin üçüncü rübündə bu göstərici 264,3 milyon dollar təşkil edib.

Bu ilin üçüncü rübündə ən çox investisiya qoyulan sahə daşınmaz əmlak sektoru olub – 91,7 milyon dollar (17,2 %). Nəqliyyat sektoru 79,8 milyon dollar (15 %), su təchizatı və tullantıların idarə olunması isə 71,5 milyon dollar (13,4 %) ilə ilk üçlükdə qərarlaşıb. Ardınca istehsal sənayesi – 68,3 milyon dollar və informasiya-kommunikasiya sektoru gəlir – 54,5 milyon dollar.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.